

2 Fevral – Azərbaycan Gəncləri Günü

# Gənclik xoşbəxt gələcəyin müjdəçisidir

***Əslində, Gənclər Günü hamımızın bayramıdır. Təkcə yaşca gənc olanların deyil, ruhən gənc olanların da, gənclərlə işləyib onların tərbiyəsinə məsuliyyət daşıyanların da bu günü qeyd etməyə haqqı çatır.Tarix dəyişsə də, gənclik ruhu davam edir, milli-mənəvi dəyərlər yaşadılır. Məhz vətənpərvər gənclik özünün sanbalı ilə xoşbəxt gələcəyin müjdəçisi olur.***

***Azərbaycan dəyərləri, milli dəyərlərimiz bizim üçün əsas prinsipdir və gənc nəsil də bu ruhda tərbiyə almalıdır, milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə almalıdır. Gənc nəsil mənfi xarici təsirdən uzaq olmalıdır və buna nail olmaq üçün tərbiyə işləri aparılmalıdır. Gənclər savadlı, bilikli olmalıdırlar, eyni zamanda, milli mədəniyyətimizə yaxın olmalıdırlar. Bizim milli dəyərlərimizi dərk etməlidirlər, onları yaşatmalıdırlar və bu istiqamətdə çox ciddi iş aparılmalıdır. Çünki indiki dünyada qloballaşma prosesləri gedir və bəzi hallarda xarici dairələr gəncləri özləri üçün əsas hədəf seçirlər. Yəni, gəncləri aldatmaq, yoldan çıxarmaq üçün səylər göstərilir. Biz bunu görürük və əlbəttə, bunun qarşısı alınmalıdır.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

Ulu öndər Heydər Əliyev ölkəmizə rəhbərliyinin hər iki dönəmində yüksək səviyyəli gənc nəslin yetişdirilməsini ümdə vəzifə sayıb. Dövlət orqanlarının gənclərlə iş sahəsindəki fəaliyyətini əlaqələndirmək məqsədi ilə 1994-cü ildə Gənclər və İdman Nazirliyi yaradılıb. Unudulmaz dahi şəxsiyyətin təşəbbüsü ilə 1996-cı ildən başlayaraq Azərbaycan gənclərinin forumları keçirilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib. "Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir". – İlk forumda ulu öndər gənclərin qarşısında bu tarixi vəzifəni qoyub.

...Həmin forumda Masallıdan olan gənc fermer Güləş Allahyarovun çıxışını yaxşı xatırlayıram. Bir qədər həyəcanlı olsa da, qətiyyətlə dedi ki, cənab Prezident, bizə özümüzü göstərmək üçün yaratdığınız şəraitə görə Sizə minnətdarıq. Çalışacağıq, hər gün ikiqat səylə işləyək, ölkə iqtisadiyyatını yüksəldək ki, güclü dövlətimiz olsun. O zaman Qarabağı da geri ala bilərik, dünyaya da səs sala bilərik. Gənc fermerin çıxışı Prezidentin xoşuna gəlmiş və alqışlarla qarşılanmışdı.

İndi artıq 60 yaşında olan Güləş Allahyarovla o vaxtdan dostluq edirəm. Onun yaratdığı "İldırım" MMS əsasən heyvandarlıqla məşğul olur. Təcrübəli fermer gəncləri başına toplayıb aqrar sahənin inkişafına töhfələr verir. Ardıcılları çoxdur.

Sözügedən forumdan bir il sonra, tədbirin keçirildiyi gün – fevralın 2-si Azərbaycan Gəncləri Günü elan edilib. Həmin vaxtdan etibarən Gənclər Günü MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda təntənəli şəkildə qeyd edilməyə başlanıb. Düz 25 ildir ki, dövlətimizin hərtərəfli qayğısı ilə əhatə olunmuş gənclər bu bayramı sevinclə keçirir, nailiyyətlərini daha da artırırlar.

Gənclər üçün fəaliyyət üfüqlərini genişləndirən dövlət proqramları, 1999-cu ildə "Dövlət gənclər siyasəti haqqında" fərmanın imzalanması Heydər Əliyevin gənclərə böyük qayğısının təzahürü idi. Gənclərlə bağlı digər mühüm sənəd 2002-ci ildə qəbul edilmiş "Gənclər siyasəti haqqında" Qanundur. XXI əsri Azərbaycanda gənclərin müstəqil dövlətimizi qurub-yaratmaq və inkişaf etdirmək dövrü kimi xarakterizə edən ulu öndərin gəncliyə olan etimadı artıq öz təsdiqini hərtərəfli şəkildə tapır.

Bu gün ölkəmizdə gənclər siyasəti yeni aspektdə reallaşır. Prezident İlham Əliyev özünün bütün qərarları ilə ümummilli liderin gənclər siyasətinə sadiqliyini sübuta yetirib. Dövlətimizin başçısı gəncləri aparıcı qüvvəyə çevirmək və onların cari qayğılarının həllini təmin etmək məqsədi ilə 2005-2009-cu illəri əhatə edən Dövlət Proqramını təsdiq edib.

Prezident İlham Əliyevin 2007-ci ilin "Gənclər ili" elan edilməsi ilə bağlı sərəncamı o zaman gənclərin fəallığının daha da yüksəlməsinə səbəb olub.

Elm və texnologiyanın sürətli inkişafı, postneft dövrünün başlanması Azərbaycan dövlətinin də gənclərlə bağlı zamanın tələblərinə uyğun siyasət yürütməsini zəruri edib. Ölkə rəhbəri bunu nəzərə alaraq, gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etmək məqsədilə 2015-ci il yanvarın 26-da "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında sərəncam imzalayıb. Gənclərimizin dini ekstremizm, separatizm, beynəlxalq terrorizm kimi təhlükəli, zərərli təsirlərə düşməsinin qarşısını alan yeni iş metodlarının tətbiqi ilə əlaqədar "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı həyata keçirilib.

İnişilin payızında 44 günlük Vətən müharibəsində gənclərimizin qanı ilə yazılmış Qələbə salnaməsinin parlaq sətirləri heç zaman solmayacaq. Məhz gənclərimiz öz ata-babalarının şöhrət yolunu şərəflə davam etdiriblər. Cənab İlham Əliyev Bakının Azadlıq meydanında keçirilən Zəfər paradında bu barədə fikirlərini tükənməz iftixar hissi ilə ifadə edib: "Müharibə dövründə Ermənistan ordusunda 10 mindən çox fərari olub. Azərbaycan Ordusunda bir dənə də fərari olmayıb. Yaralı əsgər və zabitlərimiz hərbi hospitallarda, xəstəxanalarda həkimlərdən xahiş edirdilər ki, bizi tezliklə sağaldın, biz qayıdaq döyüş meydanına, biz öz missiyamızı başa vurmalıyıq. Azərbaycan xalqı öz böyüklüyünü göstərdi, yüksək mənəvi ruhunu göstərdi".

Prezident İlham Əliyevin Azərbaycanın igid oğulları barədə fikirləri xüsusilə diqqətçəkəndir: "Əlbəttə ki, İkinci Qarabağ müharibəsindəki parlaq tarixi Qələbəmiz gənclərimizin tərbiyə işində əsas rol oynamalıdır. 44 günlük Vətən müharibəsinin hər günü bizim üçün əzizdir, doğmadır. Vətən uğrunda öz canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bizim üçün doğmadır, bizim üçün müqəddəsdir və gənclər bu nümunələr əsasında tərbiyə almalıdırlar. Bizim gənclər artıq müzəffər xalqın nümayəndələri kimi böyüyəcəklər. Bunun çox böyük mənəvi və psixoloji mənası var".

Prezident İlham Əliyev gənc kadrların irəli çəkilməsi ilə də bağlı ardıcıl olaraq əməli addımlar atır, gənclər siyasətini zamanın çağırışlarına uyğun şəkildə yeni aspektdə gerçəkləşdirir. Hazırda neçə-neçə layiqli gənc etimadı nazir, icra hakimiyyəti başçısı və digər məsuliyyətli vəzifələrdə doğruldur. 2011-ci ildə Gənclər Fondunun yaradılması ölkəmizdə gənclər siyasətinin elmi-nəzəri əsaslara bağlılığının, əməli nəticəliliyinin daha bir əyani sübutudur. "Gənclər üçün Prezident Mükafatının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il tarixli fərmanı ilə hər il ölkəmizdə bu ali mükafatların verilməsi gözəl ənənə halını alıb. Elm, təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində xüsusi fərqlənən şəxslər həmin mükafata layiq görülürlər.

Gənclik və idman daim qoşa səslənən ifadələrdir. Dövlətimizin gənclər siyasətində idman mühüm yer tutur. Ölkə rəhbərinin ardıcıl səyləri nəticəsində Azərbaycan dünyanın qabaqcıl idman ölkələri ilə bir sırada vüqarla addımlayır. Bu il Milli Olimpiya Komitəsinin 30 illik yubileyi ilidir. Ötən il dekabrın 16-da Milli Olimpiya Komitəsinin onlayn formatda VIII hesabat- seçki baş məclisinin iclasında cənab İlham Əliyev yenidən Azərbaycan MOK-un prezidenti seçilib. Bu, o deməkdir ki, idmana qayğı daha da artacaq. Çünki möhtərəm Prezidentimiz idmana önəm verilməsini daim prioritet sayır. Bu sahədə birgə fəaliyyət nəticəsində və idmana cavabdehlik daşıyan bütün qurumlar arasındakı koordinasiya sayəsində Azərbaycan beynəlxalq aləmdə çox böyük uğurlara imza atıb. Gənclərimizin bugünkü qəhrəmanlıqlarının kökündə duran amillərdən birinin də məhz idmanın olması danılmaz faktdır. İdmançı gənclər yeganə sosial təbəqədir ki, onların qələbələri şərəfinə Dövlət himni səslənir, Azərbaycan bayrağı qaldırılır.

Bir neçə ay əvvəl Prezident İlham Əliyev Fərid Qayıbovu gənclər və idman naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən Azərbaycanın mötəbər beynəlxalq yarışlarda – olimpiadalarda, dünya və Avropa çempionatlarında parlaq qələbələr qazanması ənənəsini layiqincə davam etdirmək zərurətini önə çəkib: "Beynəlxalq yarışlarda idmançılarımız yüksək nəticələr göstərirlər... Son Yay Olimpiya Oyunlarında Rio Olimpiya Oyunları ilə müqayisədə az medal qazansaq da, yenə də hesab edirəm ki, idmançılarımız yaxşı nəticə göstəriblər. Medalların sayına görə Azərbaycan 33-cü yeri, Avropa ölkələri arasında 20-ci, müsəlman ölkələri arasında isə 4-cü yeri tutub... Paralimpiyaçılarımız bizi çox sevindirib və böyük məharət, peşəkarlıq, fədakarlıq göstərərək çoxlu medallar, o cümlədən, bir çox qızıl medallar qazanıblar". Dövlət başçısı, eyni zamanda, idman sahəsində buraxılan bəzi nöqsanlara da diqqəti cəlb edib və bundan nəticə çıxarmağı tapşırıb.

Azərbaycan Prezidenti yanvarın 30-da Gəncəyə səfəri zamanı oradakı İdman Sarayının tikintisinə də baş çəkib. AZƏRTAC-a müsahibəsində dövlət başçısı bu sarayın çox möhtəşəm idman obyekti olduğunu bildirib: "Bu sarayı da mənim təşəbbüsümlə inşa etməyə başlamışıq. Bu, çox böyük layihədir. Deyə bilərəm ki, Azərbaycanda bu boyda idman sarayı yoxdur, hətta Bakı şəhərində. Baxmayaraq ki, Bakı şəhərində bir çox idman sarayları var,– ancaq bütün əsas idman növlərinin bir yerdə cəmləşməsi Bakıda yoxdur. Burada isə həm döyüş idman növləri, güləş, boks, həm məktəblər – güləş məktəbi, boks məktəbi, həmçinin əl oyunları üçün xüsusi zal – basketbol, voleybol, həndbol, 50 metrlik üzgüçülük hovuzu, yardımçı otaqlar və zallar, otel. Yəni, bir daha demək istəyirəm ki, bu, ölkəmizin ən böyük idman sarayıdır. Bu sarayı Gəncədə inşa etmək gəncəlilərə edilən bir hədiyyədir... Bu idman sarayı, əminəm ki, gələn ilin sonuna qədər istifadəyə veriləcək, həm idmançılar, həm də şəhər sakinləri üçün çox faydalı olacaq. Çünki mən hesab edirəm və haqlıyam ki, hər bir insan idmanla məşğul olmalıdır".

Bu gün ölkəmizin öz tarixinin ən şərəfli dövrünü yaşaması həm də mübariz gənclərimizin xidməti sayılır. Azərbaycanın ərazi bütövlüyü təmin olunub, hazırda Qarabağın bütün bölgələrində dövlətimizin suverenliyinin tam bərqərar edilməsi naminə əməli səylər göstərilir. Cari il, eyni zamanda, "Şuşa ili" elan edilib. Azərbaycan gəncliyi torpaqlarımızı qarı düşməndən təmizlədiyi kimi, erməni vandallarının dağıtdığı ərazilərimizi başdan-başa yenidən qurmağa, gözəlliklər məskəninə çevirməyə də qadirdir. Gənclərimiz Qarabağın zəhmət, hünər cəbhəsində öz sözünü deməkdə qətiyyətlidirlər.

Gənclər Gününün keçirildiyi bu günlərdə Heydər Əliyev Sarayında "Bizi birləşdirən mədəniyyət" layihəsi çərçivəsində "AXIN" adlı sərginin, "Yeni gənclik" musiqi günləri adı altında tədbirlərin keçirilməsi ölkəmizdə bu bayramın yüksək ovqatla qeyd olunduğunun təzahürüdür.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***